Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Noyabr 2024

# Yük maşını və avtobus sürücüsü kimi əmək fəaliyyəti – məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Almaniyada peşəkar yük maşını və avtobus sürücüsü kimi əmək fəliyyəti üçün milli vizanı almaqdan ötrü **yalnız „VisaMetric" servis mərkəzinə** müraciət edilə bilər.
„VisaMetric "servis mərkəzinin ünvanı: **D. Əliyeva küç, 106, Winter Park Plaza, 1-ci mərtəbə, Bakı.**
Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:
https://www.visametric.com/Azerbaijan/Germany/az/p/qebulun-goeruesuen-teyin-edilmesi

**Sənədlərin işlənmə müddəti 2-8 həftə** davam edir.

**Almaniyada kim peşəkar sürücü işləyə bilər?**
Yük və/və ya avtobusla sərnişin daşımaları üçün C1, C1E, C, CE, D1, D1E, D və ya DE kateqoriyalı sürücülük vəsiqəniz olduğu təqdirdə Siz Almaniyada peşəkar sürücü kimi işləyə bilərsiniz.
„Məşğulluq Qaydalar"ının (BeschV) 24a maddəsinə uyğun olaraq Almaniyada peşəkar yük maşını və avtobus sürücüsü kimi əmək fəaliyyəti üçün şərtlər:

- Etibarlı Avropa İttifaqının (Aİ)/Avropa İqtisadi Bölgəsinin (AİB) sürücülük vəsiqəsi
  **və**
- Əsas (və ya sürətləndirilmiş) ixtisaslaşmaya dair təsdiq. Təsdiq aşağıdakılarla təmin edilə bilər:
  - Aİ/AİB sürücülük vəsiqəsində 95 kodunun qeyd olunması VƏ YA
  - Aİ/AİB ölkələrinin birindən sürücünün ixtisas sertitikatı yaxud
  - Aİ/AİB sürücü lisenziyası

**variant 1:** əgər Siz **Aİ/AİB sürücülük vəsiqəsinə** və zəruri **Aİ/AİB əsas kvalifikasiyasına** maliksiniz, Siz „Məşğulluq Qaydalar"ının (BeschV) 24a maddəsinin 1-ci bəndinə müvafiq peşəkar sürücü kimi əmək fəaliyyəti üçün vizanı almaqdan ötrü müraciət edə bilərsiniz.

**variant 2A:** əgər Siz **Aİ/AİB əsas kvalifikasiyasına** maliksiniz **lakin Aİ/AİB sürücülük vəsiqəniz** yoxdur, Siz „Məşğulluq Qaydalar"ının (BeschV) 24a maddəsinin 2-ci bəndinə müvafiq peşəkar sürücü kimi əmək fəaliyyəti üçün vizanı almaqdan ötrü müraciət edə bilərsinid. Bu halda, alman işəgötürəniz Almaniyaya köçdükdən sonra altı ay ərzində vaxtında alman sürücülük vəsiqəsinin alındığınızı təsdiq etməlidir.

**variant 2B:** Əgər Siz həm **Aİ/AİB EWR sürücülük vəsiqəsinə** və həm də **zəruri Aİ/AİB əsas kvalifikasiyasına malik deyilsiniz**, Siz „Məşğulluq Qaydalar"ının (BeschV) 24a maddəsinin 2-ci bəndinə alman işəgötürən tərəfindən keçirilən ixtisaslaşma tədbirlərində iştirak etmək üçün viza almaqdan ötrü müraciət edə bilərsiniz.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir ərizə ilə aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Xarici pasport ən azı 2 boş səhifəsi olmaqla (xarici pasportun şəkil olan səhifəsi və əvvəlki vizalar, möhürlər və qeydlər olan səhifələrin *əsli + 1ədəd surəti)* |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya Azərbaycan vətəndaşlığı olmayan şəxslər üçün etibarlı olan “Azərbaycanda yaşamaq icazəsi” sənədi *(əsli + 1 ədəd surəti)* |
| ☐ 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı) |
| ☐ Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax) |
| ☐ Almaniyada Yaşamaq haqqında Qanunun 18-ci mad. 2-ci paraqrafının 4a bəndinə uyğun olaraq dəqiq iş yeri təklifi haqqında təsdiqin təqdim edilməsi |
| ☐ müəyyən şərtlər altında – “Məşğullug haqqında Qaydaların “”36-cı maddəsinin 3-cü bəndinə uyğun olaraq Federal Məşğulluq Agentliyinin öncədən razılığı (Vorabzustimmung der Bundesagentur für Arbeit) |
| ☐ Səyahət tibbi sığorta (Şengen dövlətləri üçün etibarlı və sığorta ödənişinin minimal məbləği 30 000 avro, nəzərdə tutulan səfər tarixindən işə başladığınız tarixədək qüvvədə olmalıdır) |

| **45 yaşına çatmış şəxslər** |
|---|
| ☐ Aylıq əmək haqqı 4.152,50 avro / illik 49.830 avro (1.1.2025-ci tarixdən etibarən: ayda 4.427,50 avro / ildə 53.130 avro) və ahıl yaşına çatarkən müvafiq sosial təminat haqqında sənəd *(əsli + 1 ədəd surəti)* |
| **variant 1: Siz Aİ/AİB sürücülük vəsiqəsinə və zəruri Aİ/AİB əsas kvalifikasiyasına maliksiniz** |
| ☐ Aİ/AİB-nin C1, C1E, C, CE, D1, D1E, D və ya DE kateqoriyalı sürücülük *(əsli + 1 ədəd surəti)* |
| ☐ Aİ/AİB-nin əsas kvalifikasiyasına dair təsdiq *(əsli və 1 ədəd surəti)* |
| ☐ İşəgötürən tərəfindən tam doldurulmuş və imzalanmış „Məşğulluq münasibətlərinə dair bəyanat“ |
| ☐ İşəgötürən tərəfindən tam doldurulmuş və imzalanmış „Məşğuliyyət münasibətlərinə dair bəyanat“a əlavə „C“ vərəqi. Bu bəyanatda işəgötürəniniz Sizin hansı sürücülük vəsiqəsinə malik olduğunuzu, hansı əsas keyfiyyətlərə malik olduğunuzu və yük daşımalarında işləməyiniz üçün növbəti addımın nə olacağını təsdiqləyir. |
| **variant 2A: Aİ/AİB kvalifikasiyasına maliksiniz lakin Aİ/AİB sürücülük vəsiqəniz yoxdur** |
| ☐ C1, C1E, C, CE, D1, D1E, D oder DE kateqoriyalı sürücülük vəsiqəsi *(əsli + 1 ədəd surəti* |
| ☐ Aİ/AİB ixtisas sertifikatı *(əsli + 1 ədəd surəti)* |
| ☐ İşəgötürən tərəfindən tam doldurulmuş və imzalanmış „Məşğulluq münasibətlərinə dair bəyanat“ |
| ☐ İşəgötürən tərəfindən tam doldurulmuş və imzalanmış „Məşğuliyyət münasibətlərinə dair bəyanat“a əlavə „C“ vərəqi. Bu bəyanatda işəgötürəniniz Sizin hansı sürücülük vəsiqəsinə malik olduğunuzu, hansı əsas keyfiyyətlərə malik olduğunuzu və yük daşımalarında işləməyiniz üçün növbəti addımın nə olacağını təsdiqləyir. |
| **variant 2B: Siz həm Aİ/AİB sürücülük vəsiqəsinə həm də zəruri Aİ/AİB əsas kvalifikasiyaya malik deyilsiniz** |
| ☐ C1, C1E, C, CE, D1, D1E, D yaxud DE kateqoriyalı sürücülük vəsiqə *(əsli + 1 ədəd surəti)* |

| | |
|---|---|
| ☐ | İşəgötürən tərəfindən tam doldurulmuş və imzalanmış kvalifikasiya tədbiri zamanı digər məşğulluq üçün „Məşğulluq münasibətlərinə dair bəyanat“ |
| ☐ | İşəgötürən tərəfindən tamamilə doldurulmuş və imzalanmış, ixtisas tədbiri başa çatdıqdan və ya alman sürücülük vəsiqəsinin alınmasından sonra işə qəbul üçün „Məşğulluq münasibətlərinə dair bəyanat“ |
| ☐ | İşəgötürən tərəfindən tam doldurulmuş və imzalanmış „Məşğuliyyət münasibətlərinə dair bəyanat“a əlavə „C“ vərəqi. Bu bəyannamədə işəgötürəniniz Sizin hansı sürücülük vəsiqəsinə malik olduğunuzu, hansı əsas keyfiyyətlərə malik olduğunuzu və kommersiya yük daşımalarında işləyənə qədər növbəti addımın nə olacağını təsdiqləyir. |

**Diqqət**: Ayrı-ayrı hallarda viza müraciəti proseduru zamanı burada göstərilməyən əlavə sənədlərin təqdim edilməsi tələb edilə bilər. Viza prosesi zamanı Sizinlə əlaqə saxlamaq üçün şəxsi elektron poçt ünvanınızın qeyd edilməsinin xahiş edirik.